# MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN AÇIQ MƏLUMATLAR DƏRSLİYİ

Yeniləşdirilmiş nəşr

2016

„Beynəlxalq şəffaflıq - Gürcüstan“
http://transparency.ge

Dərslik Amerika xalqının dəstəyi, USAID-in köməkliyi ilə hazırlanmışdır. Sənədin məzmunu və onda bildirilən fikirlər “Beynəlxalq şəffaflıq - Gürcüstan”-a aiddir və Amerika Hökumətinin, USAID və ya IREX-in mövqeyini əks etdirmir.

# Mündəricat

**Giriş** ........ Error! Bookmark not defined.

**Dövlət alqı-satqılarının elektron platforması → tenders.procurement.gov.ge** ........ **6**

**Şirkətlərin əmlakı** ........ **13**

İctimai Reyestrin Milli Agentliyi → www.napr.gov.ge ........ 13

„Beynəlxalq şəffaflıq - Gürcüstan“ şirkətlərin axtarış onlayn platforması → www.companyinfo.ge ........ 21

**Torpaq əmlakı** ........ **22**

İctimai Reyestrin Milli Agentliyi → www.napr.gov.ge ........ 22

Rəqəmsal xəritələr → www.napr.gov.ge ........ 24

**İctimai məmurların bəyannamələri → www.declaration.gov.ge** ........ **26**

**Partiya ianələri → www.sao.ge** ........ **28**

**İctimai Reyestrin platformalarında mövcud başqa reyestrlər** ........ **29**

Girov (İpoteka) Reyestri → naprlmr.reestri.gov.ge ........ 29

Məmurlar Reyestri → www.debt.reestri.gov.ge ........ 30

Siyasi Birliklərin Reyestri → napr.gov.ge ........ 31

**Seçki göstəricilərinin onlayn platformaları** ........ **31**

Mərkəzi seçki komissiyası → results.cec.gov.ge ........ 31

Mərkəzi seçki komissiyası → voters.cec.gov.ge ........ 31

Campstart → Mashasada.me ........ 33

**Hüquqi göstəricilərin bazaları** ........ Error! Bookmark not defined.

Gürcüstanın qanunvericilik qurumu → matsne.gov.ge ........ 33

Gürcüstan parlamenti → parliament.ge ........ 36

Gürcüstan hökuməti, Gürcüstan prezidenti → Government.gov.ge and president.gov.ge ........ 37

**Gürcüstan kommunikasiyalarının Milli komissiya məlumatları** ........ **38**

Telekommunikasiya şirkətləri haqqında məlumat → www.gncc.ge ........ 38

Departament Reyestri → www.gncc.ge ........ 38

Analitik platforma → www.analytics.gncc.ge ........ 38

**Kommersiya banklarının benefisiarlarının əmlakı → www.nbg.gov.ge** ........ **38**

**Məhkəmə qərarları** ........ **39**

Konstitusiya məhkəməsi → www.constcourt.ge ........ 39

Ali məhkəmə → www.supremecourt.ge ........ 39

Tbilisi şəhər məhkəmə işləri → www.tcc.gov.ge ........ 40

Ümumi məhkəmələr haqqında məlumatlar → *www.geocourts.ge* ........ 40

**Büdcə məlumatları** ........ **41**

Dövlət büdcəsi → www.mof.gov.ge ........ 41
Dövlət borcu → www.mof.gov.ge ........ 42
Yerli özünüidarəetmə büdcələri ........ 42
**Vergi xidmətlərinin məlumatları ........ 42**
Vergi güzəştləri ilə faydalananların reyestri → www.rs.ge ........ 42
Oyun biznesinin lisenziyalarının reyestri, xeyriyyə təşkilatlarının reyestri → www.rs.ge ........ 42
Mal kodlarının reyestri → www.rs.ge ........ 43
İdxal-ixrac məlumatları → www.rs.ge ........ 43
İnternet domen kimə aiddir? .GE domen → www.registration.ge ........ 43
Beynəlxalq domenlər → www.domaintools.com ........ 43
**Ümumi statistika məlumatları ........ 43**
Gürcüstan statistikası → www.geostat.ge ........ 43
CRRC-nin sorğular məlumatları → www.caucasusbarometer.org ........ 44
**Gəmilər və təyyarələr ........ 44**
Gürcüstanın hava limanları və təyyarələri → www.gcaa.ge ........ 44
Gəmilər haqqında məlumat üçün göz gəzdirilməsi → Marinetraffic.com & Vesseltracker.com ........ 44
**Xarici şirkətləri necə izləyək? ........ 45**
Axtarış paneli → www.investigativedashboard.com ........ 46
Ofşorlar haqqında məlumat → http://offshoreleaks.icij.org ........ 46
ABŞ qiymətli kağızları və birja məlumatları → www.secinfo.com ........ 46
**Məlumatlarımızın vizuallaşdırılmasını necə həyata keçirək?**
**Qoşma ........** Error! Bookmark not defined.

# Giriş

Gürcüstan açıq məlumatlar nöqteyi-nəzərindən çox irəli getmişdir. Hər bir vətəndaşın bir çox maraqlı internet səhifələrinə girişi mümkündür: Ədliyyə Nazirliyinin sahibkarlıq reyestrində bütün şirkətlər və onların sahibləri haqqında məlumatlar toplanılmışdır; ictimai məmurların əmlak bəyannamələri, elektron və sadələşdirilmiş alqı-satqı məlumatları açıqdır və hamı üçün pulsuzdur. Eləcə də ictimai məlumatı tələb etmədən partiyaların ianələri haqqında məlumatları əldə edə bilərsiniz.

Açıq məlumatlar mühüm üstünlüyə malikdirlər, hərçənd gürcü mətbuat vasitələri bu məlumatlardan tam istifadə edə bilmir. “Beynəlxalq şəffaflıq - Gürcüstan” 2014-cü ilin iyulunda bütün faydalı resursları vahid dərslikdə toplaya bilmişdir. İki ildən sonra bu dərsliyin yeniləşdirilmiş variantını sizə təqdim edirik ki, burada da bir neçə yeni mənbə təsvir edilir və diqqətinizi tərəfimizdən artıq təqdim edilmiş internet səhifələrin yeni funksiyalarına yönəldirik.

# Dövlət alqı-satqılarının elektron platforması → tenders.procurement.gov.ge

Elektron alqı-satqıların rəsmi platforması imkan verir ki, dövlət alqı-satqılarının bütün müqavilələrinə nəzarət edək, o cümlədən, müsabiqə xaricində birbaşa imzalanmış müqavilələrə də. Saytda axtarışa başlayana qədər bilməlisiniz ki, dövlət alqı-satqılarının platforması növbəti şəkildə tenderlərdən ibarətdir:

- Elektron tenderlər: ehtimal qiyməti 200 000 laridən çox olan tenderlər.
- Sadələşdirilmiş elektron tenderlər: sadələşdirilmiş prosedurların istifadəsi ilə ehtimal qiyməti 200 000 laridən çox olmayan tenderlərin alqı-satqısı mümkündür.
- Birləşdirilmiş tender: təchizatçılar tenderin tam dəyəri əsasında deyil, vahid qiymət əsasında müsabiqə elan edirlər. Bu qaydadan, məsələn, yanacaq kimi malın alındığında istifadə edilir.
- Sadələşdirilmiş tenderlər: ən çoxu 5000 lari dəyərində bir növ əşyaların dövlət alqı-satqısı metodudur ki, hökumətin razılığı ilə təcili zərurət halında ondan istifadə olunur.
- Müsabiqə: alqı-satqının alternativ vasitəsi, layihə xidmətinin və ya tikililərin demontajının və ya demontaj nəticəsində ərazinin materiallardan və qalıqlardan təmizlənmə xidmətinin alınması üçün istifadə edilir.

İlk dəfə tenders.procurement.gov.ge-də axtarışa başlamazdan öncə, qeydiyyatdan keçmək lazımdır.

Sistemə daxil olduqdan sonra müqavilələri növbəti parametrlərin əsasında axtara bilərsiniz: tenderin eyniləşdirmə kodu, alıcı, satıcı, tenderin statusu, tenderin tipi, tenderin kateqoriyası və tarixi.




Məlumatlar bazasının yuxarı hissəsində bir neçə əlavə var:

ePLAN→ burada ictimai müəssisə tərəfindən gələcəkdə planlaşdırılmış alqı-satqıların bütün tenderlərini görə bilərsiniz. ePLAN düyməsinə basmaqla yeni səhifəyə keçid ala bilərsiniz və onda konkret satıcını axtarıb tapa bilərsiniz ki, hansı kvartalda tender elan etməyi planlaşdırır. Qeyd edilən sistem eləcə də imkan verir ki, maliyyələşdirmə mənbəyinə baxasınız. Nəzərə alın ki, ictimai müəssisələr əvvəlcədən planlaşdırılmış satışlar haqqında məlumatı yerləşdirməyə məcburdurlar.
CMR → Agentlik eləcə də sadələşdirilmiş qayda ilə verilmiş bütün müqavilələri dərc edir. Elektron satışların platformada yerləşdirmə öhədliyi sadələşdirilmiş alqı-satqılara aid deyil; satışların bu tipi birbaşa satışı təqdim edir. Bu prosedurdan 5000 laridən aşağı qiymətli satışlar, təcili satışlar, diplomatik missiyalar zamanı göstərilən xərclərin və hökumətin müvafiq razılığı əsasında həyata keçirilən satışlar halında istifadə edilir.

SMP → Burada sadələşdirilmiş satışların həyata keçirilməsi haqqında sazişlər toplanılmışdır. Satıcılar Satış Agentliyi ilə alqı-satqıları razılaşdırır və onlardan icazə aldıqdan sonra həyata keçirirlər. Buradaca bilmək olar ki, satıcı nə üçün sadələşdirilmiş alqı-satqıya müraciət etməyi qərara almışdır.

Mübahisələrə baxış şurası → https://tenders.procurement.gov.ge-nin ana səhifəsində şikayətləndirilmiş tenderlərin siyahısı yerləşdirilmişdir. Mübahisələrə baxışın xüsusi şurası da var ki, bu da konkret tenderlərlə bağlı şikayətləri təhlil edir. Tenderlə əlaqədar müəyyən qanun pozuntusunun olduğunda, şübhələri olan maraqlı şəxslərin və ya tender iştirakçılarının tenderi şikayətləndirmək hüquqları vardır və bunun üçün də tender səhifəsində müvafiq formanı

doldurmalıdırlar. Şura konkret tenderin monitorinqini həyata keçirən, amma tenderlə birbaşa əlaqədə olmayan maraqlı vətəndaşlar tərəfindən daxil olan şikayətlərə də baxır və bu da onu bildirir ki, hər bir qeydiyyatdan keçmiş istifadəçi tenderi şikayətləndirə bilər. Şikayətləri onlayn rejimdə axtarıb tapmaq mümkündür; onlar növlərinə əsasən yerləşdiriliblər və tender nömrəsinə əlavə olunurlar.
Tenderdə iştirak edən şəxs tender başlayana qədər onlayn rejimdə satıcı təşkilatlara sual verə bilər, satıcı təşkilat isə tender başlayana qədər müəyyən vaxt ərzində ona cavab verməlidir. Bu kommunikasiyaya tender səhifəsində baxmaq mümkündür.

Qara siyahı → Rəqabət və Dövlət Alqı-Satqılar Agentliyində əvvəllər müqavilə şəfrtlərini yerinə yetirməyən və ya tenderdə iştirak zamanı yanlış məlumat təqdim edən şirkətlərin qara siyahısı vardır. Qara siyahı Rəqabət və Dövlət Alqı-Satqılar Agentliyinin ana səhifəsində açıq verilir.

Ağ siyahı → Dövlət Alqı-Satqı Agentliyi alqı-satqılarda iştirak edən ixtisaslı təchizatçıların reyestrini elektron qaydada həyata keçirir və öz rəsmi səhifəsində yerləşdirir.

Xəbərdarlıq verilmiş təchizatçıların siyahısı → alqı-satqı prosesində hər hansı bir pozuntulara yol vermiş təchizatçıların siyahısı, hərçənd onların qara siyahıya daxil edilməsi ilə mütənasiblik prinsipi pozulur. Siyahı açıqdır və Alqı-Satqı Agentliyinin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Nümunə üçün Zuqdidi munisipaliteti tərəfindən bahalı Ceep tipli maşının alqı-satqısı üçün elan edilmiş tenderlərdən biri haqqında məlumatı təhlil etməyi təklf edirik.



Tender haqqında ətraflı məlumat almaq üçün sağ tərəfdə sarı rənglə verilən tender şöbəsinə düyməni basın. Tender məlumatının ətraflı siyahısı, bir qayda olaraq, 4 hissədən ibarətdir: tender haqqında ətraflı məlumatdan, sənədlərdən, tender ərizəsi üzrə məlumat və nəticələrdən.

Tenderin ana səhifəsində tender haqqında əsas məlumat verilir, məsələn: tenderin tipi, nömrəsi,satıcı, tenderin statusu, kateqoriyası, əlavə məlumat, zəmanət məbləği, dəyəri və s. yazılmışdır.




İkinci səhifədə satıcı qurum tərəfindən dərc edilən bütün sənədlər PDF formatda, eləcə də tenderdə iştirak edən və satıcı subyektlər arasında qəbul-mübadilə baş verən fayllar yerləşdirilmişdir.



Növbəti səhifədə tender prosedurunun təsviri, təklif edilən dəyərlər və pretendentlərin adları verilmişdir. Tenderdə iştirak edən şirkətin və ya şəxsin adına düyməni basmaqla sistem qeyd edilən şəxs və ya şirkət haqqında ətraflı məlumatı göstərir.



Sistem növbəti səhifədə tenderdə iştirak edən şəxslərin maraqlarının üst-üstə düçmədiyini təsdiq edən sənədləri çıxarır. Buradaca qeyd edilən tenderlə əlaqədar əsas sənədlərə baxa bilərsiniz ki, bunda da tenderdə qalib gələn subyektlə əlaqədar məlumat və müqavilənin surəti verilir.




Dövlət qurumları tərəfindən imzalanmış sadələşdirilmiş alqı-satqı müqavilələrinin elektron reyestri gürcü elektron tender sisteminin həmin axtarışları arasındadır ki, onların sayəsində də o, şəffaflıq və istifadənin sadəliyi nöqteyi-nəzərindən dünyada mövcud sistemlərin arasında ən yaxşı sistem kimi tanınmışdır.

Sadələşdirilmiş məlumatlar bazasına əlçatmanı əldə etmək üçün istifadəçi sağ yuxarı küncdə CMR yazılı link düyməsinə basmalıdır.




Burada CMR kodun, təchizatçının, satıcı təşkilatların, satış tipi və CPV kodların əsasında

müqavilələri axtarıb tapa bilərsiniz. Bundan başqa tarixləri görə bilərsiniz ki, hansılarda da məlumatı və ya sizin üçün maraqlı müqavilələrin dəyərlərini öyrənmək olar.

Müqavilələr sağ tərəfdə düzülmüş və bir dəfəyə 5 müqaviləyə baxmaq mümkündür; daha ətraflı məlumatın alınması üçün istifadəçilər birbaşa onların üzərinə düyməni basmalıdırlar.

Bu sistemin tətbiqi şübhəsiz ki, Gürcüstanda sadələşdirilmiş alqı-satqı prosesinin şəffaflığına təsir göstərmişdir, amma bu onu bildirmir ki, məlumatların bazasının nöqsanları yoxdur. Məsələn, bütün müqavilələrin birlikdə baxılması alınmır; sistemin HTML koduna görə onun naviqasiya problemi var. Bundan başqa axtarış sistemi nasazdır – o, axtarış nəticəsinin göstərilən müddətlərlə münasibətdə etibarlılığını təmin edə bilmir.

Müqavilə sistemində qeydiyyatı müqavilənin imzalandığı tarixdən fərqləndirmək lazımdır. Bu, fərqli tarixlərdir, çünki elektron alqı-satqılardan fərqli olaraq, tender əvvəlcə sistemdə qeydiyyatdan keçir və yalnız bundan sonra müsabiqə başlayır. Bu halda müqavilə imzalandığından sonra müsabiqə başlayır ki, bu zaman Satıcı Agentlik müvafiq məlumatı gözləyir və bu da verilən müqaviləni sistemdə qeydə alır. Bu proses tez-tez göstəricilər bazasında məlumatın yubadılma ilə göstərilməsinə səbəb olur. Təcrübəmizdən irəli gələrək, tipik müqavilə halında yubanma orta hesabla təxminən 2 ayı təşkil edir, amma elə bir hallar da olmuşdur ki, bu zaman müqavilə tərəflərin onu imzaladığından 6-7 ay sonra da qeydiyyata alınmışdır.

Gəlin, nümunə üçün bir müqaviləni təhlil edək, hansına Gürcüstan Ədliyyə Nazirliyi və İtaliya şirkəti *Permasteliza* imza atmışlar və Gürcüstan Ədliyyə Nazirliyinin binasının örtüyünün inşasına aiddir.



Müqavilə haqqında məlumat sırasına düyməni basdıqdan sonra sistem istifadəçini müqavilə səhifəsinə keçirəcək və burada da satıcı subyektlər haqqında ətraflı məlumat verilmişdir (bu halda iki subyektlərin müvafiq paylarının göstərilməsi ilə), təchizatçının, müqavilə dəyərinin və ödəniş günlərinin, maliyyə mənbəyinin, satışın avtorizasiyasının, müqavilə mətninin skaner edilmiş variantının linki, müqavilə müddətləri və onun başa çatdırılma tarixi daxil olmaqla.




## Şirkətin əmlakı

## İctimai Reyestrin Milli Agentliyi → www.napr.gov.ge

Şirkətlərin və onların sahiblərinin axtarışı üçün http://napr.gov.ge səhifəsində olan İctimai Reyestrin məlumatlar bazasından istifadə edə bilərsiniz. Bu axtarış internet səhifənin yalnız gürcüdilli variantında mümkündür.

Səhifənin başlığında Biznes Reyestr düyməsini basmaq lazımdır, sonra isə sahibkarı/hüquqi şəxsi axtar yazısına basmaq lazımdır.




Ətraflı məlumat əldə etmək üçün axtarış pəncərəsinin aşağısında yerləşdirilən linkdə ətraflı axtarış düyməsini basın ki, siz Sahibkarlar və Qeyri-istehsal (qeyri-kommersiya) Hüquqi Şəxslərin Reyestrinin məlumatlar bazasının ətraflı məlumat hissəsinə keçid ala biləsiniz.




Məlumatlar bazasında məlumatı növbəti göstəricilərə əsasən axtarıb tapa bilərsiniz →

- Eyniləşdirmə kodu və ya şəxsi nömrə
- Şirkətin adı
- Hüquqi forma
- Elektron poçt

İlk növbədə, əmin olmalısınız ki, şirkətin düzgün adını göstərirsiniz. Nəzərə alın ki, şirkətlərin hüquqi/qeydiyyat adı və brend adı bir çox hallarda bir-birindən fərqlənir. Əgər şirkətin dəqiq adını bilmirsinizsə, o zaman sistem oxşar adlı şirkətlərin onlarla ehtimal nəticələrini sizə təklif edəcəkdir. Belə bir qarışıqlığın qarşısının alınması üçün lazımdır ki, şirkətin eyniləşdirmə kodu olsun. Amma real şans azdır ki, araşdıran şirkətin eyniləşdirmə kodunu əvvəlcədən bilsin. Bir qayda olaraq, əvvəldən yalnız şirkətin adı məlum olur.

Belə bir halda, istifadəçi şirkəti ikinci məlumatla axtara bilər – şirkətin adı ilə başlaya bilər. Ümumiyyətlə, şirkətin tam adı ilə axtarış məqsədəuyğun deyil, çünki adının təyin edilmiş standartı yoxdur.

Misal üçün uydurulmuş şirkət adını götürmək olar: “G-H-C”. Belə bir şirkət istənilən növbəti kombinasiya ilə qeydiyyata alınmış ola bilər “Gieiçsi”, “Gi-Eiç-Es” və s. Yalnız bir hərfi də səhvən yazsaq, o zaman göstəricilər bazası sizin axtarış şirkətinizi eyniləşdirə bilməz. Amma internet səhifədən çox istifadə etdikdə istifadəçi, adətən, hansı növdə nümunədən istifadə etməyi başa düşür.

| |
|---|
| Qeyd: yaxşı olardı ki, axtarış adını natamam forma ilə daxil edək, amma göstərilən məlumat verilən şirkət üçün təkrarolunmaz olmalıdır. |

Məsələn, əgər SC “Çiatura Neft məhsulu” adlı şirkəti axtarırıqsa, o zaman tələbdə yalnız “Çiatur” sözü olduğunda sistem şirkəti göstərir.




| | საიდენტიფიკაციო კოდი | პირადი ნომერი | დასახელება | სამართლებრივი ფორმა | სტატუსი |
|---|---|---|---|---|---|
| | 415590462 | | ჭიათურის რაიონული ჭადრაკის ფედერაცია | არასამეწარმეო (არაკომერციული) იურიდიული პირი | რეგისტრირებულია |
| | 400048088 | | ჭიათურისა და საჩხერის ეპარქიის წმინდა დიმიტრი ყიფიანის სახელობის ქართულ-ევროპული საგამომცემლო, საქველმოქმედო ცენტრი - „სპეკალი" | არასამეწარმეო (არაკომერციული) იურიდიული პირი | რეგისტრირებულია |
| | 415589875 | | ჭიათურის დასუფთავებისა და კეთილმოწყობის სერვისცენტრი | არასამეწარმეო (არაკომერციული) იურიდიული პირი | რეგისტრირებულია |
| | 215593604 | | სს ჭიათურის ნავთობპროდუქტი | სააქციო საზოგადოება | რეგისტრირებულია |
| | 415589410 | | შპს ჭიათურა 2 | შეზღუდული პასუხისმგებლობის საზოგადოება | რეგისტრირებულია |

Adlandırma standartının təyin edilməsinin əhəmiyyətini növbəti misal bəyan edir: deyək ki, tədqiqatımızın predmetini “Rustavi 2” yayım şirkəti təqdim edir. “Rustavi 2” tələbi müsbət nəticə göstərməyəcəkdir.




Bu misal məlumatlar bazasında mövcud olan uyğunsuzluğu aydın şəkildə göstərir: bizim axtarış sözümüz şirkətin adının bir hissəsidir, amma məlumatlar bazası “Çiatura Neft məhsulu” halından fərqli olaraq, şirkətin adını çıxarmadı. Bu halda dəqiq uyğunluğu axtarmaq üçün şirkətin adının müxtəlif variantlarının oynanılmasıdır ki, məlumatlar bazasında şirkətin hansı şəkildə qeydiyyatdan keçmiş olduğu fikrinə gətirir: “Rustavi-2”, “Rustavi 2”, “Rustavi 2 teleşirkəti” kimi və ya başqa cür...

> Qeyd: Səhmdar Cəmiyyətinin əmlakı ilə əlaqədar məlumat Gürcüstanda əlçatan deyil, çünki dövlət qanunvericiliyi bu növ şirkətdən belə bir məlumatı tələb etmir. Əgər şirkət ilk dəfə MMC kimi qeydiyyatdan keçmiş və sonra Səhmdar Cəmiyyətinə dəyişdirilmişdirsə, o zaman məlumatlar bazasında onun əmlakı haqqında məlumat, bir qayda olaraq, onun səhmdar cəmiyyəti kimi formalaşdığı ana qədərki dövrü göstərir.

> Qeyd: Gürcüstan qanunvericiliyi şirkətin həmin adla qeydiyyatdan keçməsini qadağan etmir, hansı ilə ki buna qədər digər bir şirkət qeydiyyatdan keçmişdir. Belə ki, sizi əlavə ehtiyat göstərməyə çağırırıq. Çalışın ki, hər zaman tərəfinizdən axtarılan şirkəti bir daha yoxlayasınız.
>
> - İstisna edilmir ki, belə bir halda tələbat olduğunda axtardığınız deyil, başqa şirkət

görünsün (eyni adları olduğu halda da). Beləliklə yenə də deyirik ki, bütün göstəricilər üst-üstə düşdüyü halda da şirkətin məlumatlarını yoxlayın.

Şirkətin tapıldığı halda,  göy "i" düyməsini basın. Bura mühafizə kodunu daxil etməlisiniz. Sonra şirkətin səhifəsinə keçirik və bu da belə görünür:



განცხადების მებნა

დამატებითი ინფორმაცია

ვიდეო ინსტრუქცია

ბროშურის ამობეჭდვა

დაბრუნება სიაში

გვერდის განახლება

| ინფორმაცია სუბიექტზე | |
|---|---|
| საიდენტიფიკაციო კოდი | **202052054** |
| პირადი ნომერი | |
| სახელმწიფო რეგისტრაციის ნომერი | 2/4-191 |
| დასახელება | **შპს ორიენტ ლოჯიკი** |
| სამართლებრივი ფორმა | **შეზღუდული პასუხისმგებლობის საზოგადოება** |
| სახელმწიფო რეგისტრაციის თარიღი | 20 ნოემბერი 1995 |
| სტატუსი | **რეგისტრირებულია** |

**განცხადებები**

| | რეგ. # | მომს. სახე | სტატუსი | თარიღი |
|---|---|---|---|---|
| | **B14021377** | **ინფორმაცია მეწარმეთა და არასამეწარმეო იურიდიულ პირთა რეესტრიდან** | **სარეგისტრაციო წარმოება დასრულებულია** | **04 მარტი 2014** |
| | **B14021202** | **ამონაწერის მომზადება მეწარმეთა და არასამეწარმეო იურიდიულ პირთა რეესტრიდან** | **სარეგისტრაციო წარმოება დასრულებულია** | **04 მარტი 2014** |
| | **B14017688** | **ამონაწერის მომზადება მეწარმეთა და არასამეწარმეო იურიდიულ პირთა რეესტრიდან** | **სარეგისტრაციო წარმოება დასრულებულია** | **21 თებერვალი 2014** |
| | **B14010032** | **ამონაწერის მომზადება მეწარმეთა და არასამეწარმეო იურიდიულ პირთა რეესტრიდან** | **სარეგისტრაციო წარმოება დასრულებულია** | **03 თებერვალი 2014** |
| | **B14005990** | **ამონაწერის მომზადება მეწარმეთა და არასამეწარმეო იურიდიულ პირთა რეესტრიდან** | **სარეგისტრაციო წარმოება დასრულებულია** | **22 იანვარი 2014** |

Bu səhifənin növbəti strukturu var: şirkətin eyniləşdirmə kodu, şəxsi nömrəsi, dövlət qeydiyyatı nömrəsi (şirkətin eyniləşdirmə kodu və ya şəxsi nömrəsi ilə səhv salmayın), hüquqi forması, dövlət qeydiyyat nömrəsi, statusu, bundan sonra da sənədlərin siyahısı gəlir ki, bu da üç kateqoriyaya bölünə bilər:

- Şirkətin əmlakı haqqında məlumatın tələb edildiyi halda, Sahibkarlar və Qeyri-sahibkarlar hüquqi şəxslərin reyestrindən hazırlanmış **çıxarış**;
- Sahibkarlar və Qeyri-sahibkarlar hüquqi şəxslərin reyestrindən **Əmlakın statusu ilə əlaqədar müxtəlif növ məlumat;**
- **Subyektin qeydiyyatdan keçmiş məlumatlarında edilmiş dəyişikliklərin qeydiyyatı** şirkətin əmlak strukturunda həyata keçirilmiş dəyişiklikdən sonra.




Əgər hissədə Sahibkarlar və Qeyri-sahibkarlar hüquqi şəxslərin reyestrindən çıxarışın hazırlanması və ya Sahibkarlar və Qeyri-sahibkarlar hüquqi şəxslərin reyestrindən məlumatın əldə edilməsi düyməsini bassanız, o zaman sistem sizi sənədin səhifəsinə ünvanlandıracaq ki, bu da tərəfin təqdim etdiyi ilkin sənəddən ibarətdir və ən əsası, prosesin başa çatdığından sonra verilən çıxarışdan.

Qeyd: nəzərə alın ki, nadir hallarda, amma yenə də ola bilsin ki, proses bitdikdən sonra hazırlanmış fayl sonda boş olsun.

Bir qayda olaraq, çıxarış səhifənin yuxarı hissəsində yerləşdirilmiş məhz bizim axtardığımız sənəddir. O, PDF formatında təqdim edilir. Subyektin qeydiyyata alındığı göstəricilərdə dəyişikliklərin qeydiyyatı halında yeganə fərq ondadır ki, bu səhifədə fayllar djvu format kimi təqdim edilmişdir. Bu format isə **djvu reader-i** tələb edir (bu proqramın köçürülməsi pulsuzdur. Aşağıdakı linkə diqqət verin).

Djvu fayllar sahibkarın görüşlərinin, hüquqi nümayəndələrinin, direktorların və bəzi hallarda, ofşor şirkətlərin sahibləri haqqında məlumatı əhatə edir. Bəzən bu fayllarda girov haqqında məlumat və ya məhkəmə tərəfindən şirkətlərə qarşı çıxarılmış qərarlar yerləşir. Əməkdaşların adı ilə adlandırılmış Djvu fayllar vacib deyillər, adları rəqəmlərdən ibarət olan fayllar vacibdirlər. Səhmdar Cəmiyyətlərinin halında djvu fayl sahibinin kimliyini göstərə bilər, bu da çıxarışda

görünmür. Unutmayın: djvu faylların vasitəsilə ofşorda qeydiyyatdan keçmiş şirkətlər haqqında daha çox dəyərli göstəriciləri öyrənmək olar.

Qeyd: şirkətin profil səhifəsində tələbi təqdim edən şirkətin direktorunun və ya nümayəndəsinin şəxsi nömrəsi və ya ünvanını tapa bilərsiniz.
Şirkətin profil səhifəsinin axırında arxiv sənədləri ola bilər ki, bu da uzunmüddətli tarixçənin və ya əmlak üzrə mübahisəli dəyişikliklərə malik şirkət halında çox dəyərli məlumat ola bilər.

**Çıxarış** şirkətin profilində axardığımız əsas fayldır. Bu fayl, ümumiyyətlə, bir neçə hissəyə bölünə bilər:

- Yuxarı hissədə ərizənin nömrəsi, ərizənin qeydiyyat nömrəsi və çıxarışın hazırlanma tarixi verilmişdir.
- Sonra şirkət haqqında məlumat gəlir, məsələn, adı, qeydiyyat yeri, şəxsi nömrəsi, şirkətin tipi, qeydiyyat tarixi, dövlət qeydiyyatının şəxsi nömrəsi (şirkətin eyniləşdirmə kodu ilə səhv salmayın) və şirkəti qeydiyyata alan dövlət qurumu.
- Sonra şirkətin idarə edilməsi haqqında cavabdeh şəxslərin siyahısı verilir.
- Növbəti hissədə şirkətin tərəfdaşları ətraflı şəkildə təsvir olunurlar, onların şəxsi nömrəsi, adı və qeyd edilən şirkətdə malik olduqları paylarının göstərilməsi ilə.
- Əgər şirkət yenidən təşkil olunmuş və ya başqa subyektə birləşmişdirsə, o zaman müvafiq məlumat növbəti hissədə ətraflı şəkildə yerləşdiriləcəkdir.

Biznesin reyestri şirkətdə şəxslərin iştirakı haqqında məlumatı axtarmağa imkan verir. Bunun üçün iştirakçılıqla axtarışına müraciət etmək lazımdır.




## „Beynəlxalq şəffaflıq – Gürcüstan" şirkətlərin axtarışının onlayn platforması → www.companyinfo.ge

Companyinfo.ge „Beynəlxalq Şəffaflıq – Gürcüstan" tərəfindən yaradılmış saytdır və İctimai Reyestrin rəsmi göstəricilərinə əsaslanır. 2014-cü ildə İctimai Reyestrin Milli Agentliyi biznes reyestrində mühafizə kodunu tətbiq etmişdir ki, bundan sonra da companyinfo-da məlumatlar axtarılmır. www.companyinfo.ge-nin əsas üstünlüyü ondan ibarətdir ki, şirkətin şəxsi nömrəsinin axtarış prosesini sadələşdirir və bu da adətən, araşdırma apardıqda həlledici məqamdır. İctimai Reyestrin rəsmi saytından fərqli olaraq, bu saytda axtarışı həm şirkətlərin və eləcə də fərdi şəxslərin adları ilə apara bilərsiniz. Hər tələb nəticəsində səhifə açılacaqdır, onda da şirkətlərin və biznesmenlərin əlaqələrini əks etdirən geniş siyahı ilə tanış ola bilərsiniz.



# Torpaq əmlakı

**İctimai Reyestrin Milli Agentliyi → www.napr.gov.ge**

Torpaq Reyestrinin məlumatlar bazası Dövlət Reyestrinin restri.gov.ge internet səhifəsində yerləşdirilmişdir. Onun əlçatması üçün saytın indekslər səhifəsində “Daşınmaz Əmlakın Reyestri” düyməsinə, sonra isə “ərizə axtarışı” düyməsinə basmalısınız.

Daşınmaz əmlakın məlumatlar bazası daşınmaz əmlak statusunda dəyişikliklərin qeydiyyatı ilə əlaqədar ərizələrdən ibarətdir. Burada istifadəçi ərizələri və çıxarışları axtara bilər: ərizənin qeydiyyatı, qeydiyyat tarixi, şəxsin/təşkilatın, daşınmaz əmlakın ünvanı, torpağın reyestri (kadastr) koduna əsasən.

> Qeyd: kadastr koduna əsasən axtarışda nəzərə alın ki, rəqəmlər arasında bölgü nöqtələri olmalıdır. Hər iki rəqəmi nöqtə ilə ayırın və son üç rəqəmi buraxın. Mənzillərin daha uzun kadastr kodları vardır.

Sistem tələbə cavabı cərgələr şəklində verir və onlardan hər biri qeydiyyatdan keçmiş ərizəni təqdim edir. Hər bir ərizəyə daxil olduqda mühafizə kodundan istifadə etməlisiniz.



Mühafizə kodunu daxil etdikdən sonra istifadəçi ərizə profili səhifəsinə keçid alır. Bu səhifə üç hissəyə bölünə bilər: birinci hissə çıxarışdır ki, daşınmaz əmlakın mülkiyyət statutusunu ətraflı şəkildə təsvir edir; ikinci hissə təqdim edilən sənədlər üzrə ərizənin işlənilməsi vaxtını göstərir; üçüncü hissədə şəxs, sahibkar, xidmət növü, ödənilmiş məbləğ, ərizənin daxil edildiyi tarix və ərizənin işlənilməsi üçün lazım olan vaxt, daşınmaz əmlakın ünvanı, kadastr kodu və başqa əlavə məlumatlar haqqında konkret məlumat verilir.




Ərizə İctimai Reyestrin çıxarışlarından ibarətdir, hansıların PDF sənəd şəklində yüklənilməsi mümkündür. PDF formatın bu sənədi torpağın kadastr kodu, onun tipi (kənd təsərrüfatı, qeyri-kənd təsərrüfatı və s.) haqqında məlumatdan ibarətdir. Onda eləcə də sahibkarlar və torpağın istifadəsi hüququna malik şəxslər/şirkətlər (beləsilərin olduğu halda) göstərilir. Sistem eləcə də göstərir ki, əmlak ipoteka ilə yüklənilmişdirmi və ya onlara hüquq-mühafizə orqanları tərəfindən hər hansı başqa bir məhdudiyyət qoyulmuşdurmu.



### მესაკუთრის განყოფილება

**განცხადების რეგისტრაცია : ნომერი 882010598615 , თარიღი 07/05/2010 15:40:32**
**უფლების რეგისტრაცია: თარიღი 07/05/2010**

**უფლების დამადასტურებელი დოკუმენტი:**

- ნასყიდობის ხელშეკრულება N1-13341 , დამოწმების თარიღი:15/11/2007 ,ნოტარიუსი ც. ბერიძე
- საკუთრების დამადასტურებელი მოწმობა. N441-ა , დამოწმების თარიღი:15/11/2007 , საქართველოს ეკონომიკური განვითარების სამინისტრო

**მესაკუთრეები:**
**ლევან ქარლავა**,P/N: 01024029319

**მესაკუთრე:** **აღწერა:**
**ლევან ქარლავა**

### იპოთეკა

**განცხადების რეგისტრაცია ნომერი 882010626795 თარიღი 25/05/2010 18:14:05**

იპოთეკის ხელშეკრულება **CMB 00177-2010/1,** დამოწმების თარიღი**25/05/2010,** საქართველოს იუსტიციის სამინისტროს საჯარო რეესტრის ეროვნული სააგენტო

უფლების

## Rəqəmsal xəritələr → www.napr.gov.ge

Rəqəmsal xəritələr İctimai Reyestrin saytının (www.napr.gov.ge) ana səhifəsində yerləşdirilmişdir, coğrafi məlumat və xəritələr hissəsində. Bu hissədə müxtəlif növ xidmətlərdən faydalanmaq olar, o cümlədən rəqəmsal xəritələri görmək mümkündür və bu da daşınmaz əmlakın axtarışını sadələşdirir. Xəritələr hissəsində kadastr xəritələri adlı yarimhissə var ki, onların arasında Gürcüstan miqyasında kadastr xəritəsini görmək olar.




Kadastr xəritəsi daşınmaz əmlak haqqında məlumat axtarmaq istədiyimiz və obyektin təxminən harada yerləşdiyini bildiyimiz, lakin başqa məlumatlara malik olmadığımız halda münasibdir.

Xəritə axtarış sistemi ilə təchiz edilmiş və bu da səhifənin yuxarı hissəsində yerləşdirilmişdir.

Regionu seçin (məsələn, Tbilisini).  Bundan sonra naviqasiya vasitəsilə torpaq sahəsini axtarmaq olar və bu da çox zəhmət tələb edən uzunmüddətli bir proses ola bilər.




+ və - işarələrinin vasitəsilə xəritəni yaxınlaşdırmaq və ya uzaqlaşdırmaq olar, oxların vasitəsilə isə istiqaməti seçmək olar. Xəritədə görünən yazılar və kodlar naviqasiyada bizə köməklik edirlər.



Axtarış nəticəsi sizə torpağın görünüşü və kadastr kodları ilə qonşu torpaq sahələrini göstərəcəkdir.  Kadastr kodunu tapdıqdan sonra isə daşınmaz əmlak haqqında məlumatı axtarıb tapmaq mümkündür.



# İctimai məmurların bəyannamələri → www.declaration.gov.ge

Gürcüstan qanunvericiliyi ictimai məmurları məcbur edir ki, hər il əmlak bəyannamələrini təqdim etsinlər ki, bunlar da ictimai xidmətin bürosunun www.declaration.gov.ge saytına yüklənilir. Saytda bəyannamələrin axtarışı ictimai məmur şəklində və ya konkret ictimai məmurun malik olduğu əşya və ya brendə əsasən mümkündür (məsələn, “Bentli”).




Axtarış zamanı adı ingilis dilində yığdıqda, əgər gürcü əlifbasının bir hərfi ingilis dilində müxtəlif hərflərlə ifadə olunursa, bunu sistem özü başa düşür (məsələn, Levan Kardava və ya Levan Qardava bir nəticəni göstərəcəkdir).

Qeyd: diqqəti şəxsin təqdim etdiyi subyektə yönəldin ki, müxtəlif müəssisələrdə çalışan eyni ada malik iki şəxs səhv düşməsin.

Əmlak bəyannaməsi bir neçə səhifədən ibarətdir, onlardan hər biri həmin fəallıqların ayrı-ayrı növünə aiddir, hansına verilən ictimai məmur və ya onun ailə üzvü malik ola bilər.

Birinci səhifədə ictimai məmurun adı, bəyannamənin təqdim edildiyi tarix, təşkilatın adı, ünvanı və həmin şəxsin doğum tarixi verilir.

Bəyannamədə bəyanatçının və onun ailə üzvlərinin haqqında növbəti məlumat göstərilmişdir: daşınmaz əmlak, daşınan əmlak, bank hesabları, əldə olan məbləğ, şirkətlərin əmlakı, ödənişli işdən gəlir, dəyəri 500 laridən yuxarı olan hədiyyələr.

https://declaration.gov.ge/declaration/48261

| თქვენი, თქვენი ოჯახის წევრის საკუთრებაში არსებული უძრავი ქონება | | | |
|---|---|---|---|
| ქონების მესაკუთრის სახელი, გვარი (თუ ნივთი საერთო საკუთრებაში იმყოფება, მიუთითეთ მფლობელის პროცენტული წილი) | ქონების სახეობა | ქონების ადგილმდებარეობა, საერთო ფართობი | თუ ნივთი საერთო საკუთრებაში იმყოფება, მიუთითეთ თანამესაკუთრეები (თუ თანამესაკუთრე თქვენი ოჯახის წევრია მიუთითეთ მისი პროცენტული წილი) |
| თეა წულუკიანი | მიწის ნაკვეთი | საქართველო, თბილისი, სოფელი დიღომი, ვაჟა-ფშაველას ქ., ფართობი - 900.00 კვ.მ | |
| თეა წულუკიანი | საცხოვრებელი სახლი | საქართველო, თბილისი, სოფელი დიღომი, ვაჟა-ფშაველას ქ., ფართობი - 400.00 კვ.მ | |
| თეა წულუკიანი | ავტოფარეხი | საქართველო, თბილისი, სოფელი დიღომი, ვაჟა-ფშაველას ქ., ფართობი - 30.00 კვ.მ | |
| თეა წულუკიანი | ბინა | საფრანგეთი, სტრასბურგი, დრაგონის ქ. 4, ფართობი - 120.00 კვ.მ | |
| თეა წულუკიანი | არასაცხოვრებელი ფართი | საფრანგეთი, სტრასბურგი, დრაგონის ქ. 4, ფართობი - 6.00 კვ.მ | |
| ბათუ წულუკიანი | მიწის ნაკვეთი | საქართველო, სოფელი მანავი, საგარეჯოს რაიონი, სოფელი მანავი, ფართობი - 1990.00 კვ.მ | |
| ავთანდილ წულუკიანი | მიწის ნაკვეთი | საქართველო, დუშეთის რაიონი, სოფელი ანანური, ანანურის ამხანაგური მეურნეობა, ფართობი - 1090.00 კვ.მ | |
| ავთანდილ წულუკიანი | საცხოვრებელი სახლი | საქართველო, დუშეთის რაიონი, სოფელი ანანური, ანანურის ამხანაგური მეურნეობა, ფართობი - 300.00 კვ.მ | |
| გიული შანიძე | ბინა | საქართველო, თბილისი 0102, უზნაძის ქ. 4, ფართობი - 120.00 კვ.მ | |
| გიული შანიძე | არასაცხოვრებელი ფართი | საქართველო, თბილისი 0102, უზნაძის ქ. | |

Qeyd: doğum tarixi olduqca mühüm bir məlumatdır, çünki bəyannamələr ictimai məmurun, onun ən yaxın qohumları və ya ailə üzvlərinin şəxsi nömrələrindən ibarət deyil. Belə ki, ictimai məmurun şəxsi nömrəsini və onun əmlakı haqqında məlumatı başqa bazalarda təyin etmək üçün ictimai reyestrin məlumatlarından faydalanırıq (Biznes və daşınmaz əmlakın reyestrləri), burada eyni adı və soyadı olan şəxsləri axtarırıq; bu məlumatlar bazasından şəxsi nömrəni və soyadı seçicilərin məlumatlar bazasında həmin şəxslərin doğum tarixlərini təyin etmək üçün istifadə edirik, bunu da qarşıdakı məlumatlar bazasında qeyd edilən şəxslərə uyğunlaşdırırıq ki, axtardığımız şəxsi təyin edək.

Əşyaya əsasən axtarışı həyata keçirdiyimizdə, məsələn, “Bentli”, “Mersedes”, Tsğnetidə bağ evi, Parisdə mənzil, “Leksus” və s. o  zaman məlumatlar bazası hər hansı bir ictimai məmurun verilən vahidləri göstərmiş olduğu bütün bəyannamələri göstərir. Nümunə üçün gəlin araşdıraq ki, ictimai məmurlar arasında kim “Bentli” avtomobilinə malikdir (və ya malik idi). Məlum olduğu kimi, Gürcüstanın Energetika naziri Kaxa Kaladze yeganə yüksək vəzifəli ictimai şəxsdir ki, onun şəxsi qarajında “Bentli” maşını vardır.




## Partiya ianələri → www.sao.ge

Dövlət auditi xidmətinin saytı siyasi partiyaların ianələri haqqında məlumatı əhatə edir. Göstəricilər www.sao.ge internet səhifəsinin maliyyə monitorinqinin kateqoriyasında əlçatandır. İnternet səhifədə yerləşdirilmiş məlumat siyasi partiyaların ünvanı ilə həyata keçirilmiş ianələr haqqında 2012-ci ildən başlanır. İllik ianələri Excel formatında yükləyə bilərsiniz və ya 2016-cı ilin aylıq və ya kvartal məlumatlarında görə bilərsiniz.




# İctimai Reyestrin platformasında olan digər reyestrlər

## Girov (ipoteka) reyestri → naprlmr.reestri.gov.ge

Girov (ipoteka) reyestrinə daxil olmaq üçün birbaşa ictimai reyestrin naprlmr.reestri.gov.ge saytında yerləşdirilmiş hər hansı bir göstəricilər bazasına daxil olun. Bu vasitənin köməkliyi ilə başa düşəcəksiniz ki, rəsmi olaraq konkret şirkətin və ya şəxsin adına vergi girovu, ipoteka və ya başqa bir maliyyə sanksiyası qeydiyyata alınmışdırmı.
İnternet səhifənin iki axtarış sistemi vardır: birincidə (ərizələr) girovla əlaqədar ictimai reyestrdə təqdim edilən bütün ərizələr göstərilir (qadağa, vergi girovu/ipoteka), ikinci sistemdə isə (məhdudiyyətlər/girov) qeydiyyatdan keçmiş vergi girovu hallarının axtarışı mümkündür. Praktiki olaraq hər iki sistem eyni məlumatı verir:

- Ərizənin axtarışı bir sıra parametrlərin istifadəsi ilə mümkündür: əvvəlcə ərizənin tipini seçə bilərsiniz (qadağa, vergi girovu/ipoteka); sonra ərizənin qeydiyyat nömrəsini, şirkətin və ya şəxsiyyətin adını və qeydiyyat tarixini daxil edə bilərsiniz. Xidmət tipini və ərizənin statusunu seçə bilərsiniz. Eləcə də vergi girovunun bəzi predmetini seçə və ya ləğv edə bilərsiniz.
- İkinci axtarış sistemi şirkətlərə və özəl şəxslərə yönəlmişdir. Şirkətin və ya şəxsin adını, eyniləşdirmə kodunu və ya şəxsi nömrəsini daxil edə bilərsiniz, əmlakı təsvir edə və bütün müvafiq ərizələri nəzərdən keçirə bilərsiniz.




Axtarış nəticəsi Reyestrə hansı növ tələbin göndərildiyi və tələb nəticəsinin necə olması ilə əlaqədar məlumatı verir. Ərizənin statusuna diqqət verin – yəni qeydiyyat üçün qəbul edilmişdirmi və ya qeydiyyat başa çatdırılmışdırmı. Bundan sonra xidmət tipinə diqqət verin. Əgər xidmət qəbul edilmiş qadağanın ləğv edilməsi tələbinə aiddirsə, o zaman qeydiyyatı başa çatdırılmış onu bildirir ki, qeyd edilən əmlak üzərində girov qeydiyyata alınmamışdır. Eləcə də:

- Girovun sonuncu statusuna baxmaq üçün “Qeydiyyat prosedurları başa çatmışdır” faylını açın.
- Göstəricilər bazası ilkin ən son nəticələri göstərir.
- Göstəricilər bazası keçmişi əks etdirən sənədləri vermir ki, nə üçün əmlak girovla yüklənmişdir və ya ondan azad edilmişdir. O, sadəcə, ən son hüquqi statusu göstərir.

## Borclular reyestri → www.debt.reestri.gov.ge

Dövlətə borcları olan şirkətlərin və şəxslərin axtarışı üçün www.debt.reestri.gov.ge saytına baş çəkin. Saytda məlumatlar yalnız gürcü dilində verilir.

Axtarışın iki parametrindən istifadə edə bilərsiniz:

•Borclular reyestrində subyektin axtarışı hissəsinə keçid alın: şirkətin və ya şəxsin adını və ya identifikasiya kodunu/şəxsi nömrəsini daxil edin. Əgər şirkət/şəxsiyyət sistemdə qeyd edilərsə, o zaman nəticələrdə görünəcəkdir. Sistem yalnız şəxsin onda olduğu halda məlumatı və onun şəxsi nömrəsini verir; o, borc haqqında hər hansı bir ətraflı məlumatı təklif etmir.

• Çıxarışın və arayışın hazırlanması hissəsinə keçid alın: bu hissəyə şirkətlər onların vəziyyəti

haqqında arayışı almaq üçün müraciət edirlər – yəni onlar borcluların reyestrində qeydə alınırlar.

### Siyasi birliklərin reyestri → napr.gov.ge

İctimai reyestrin əsas səhifəsində verilən siyasi birliklər reyestri. Burada Siyasi birlik hissəsinə təsadüf edilir və onda Excel formatında siyasi birliklər reyestri yüklənmişdir (fayl: siyasi partiyalar). Bu faylı yükləmək mümkündür.




## Seçki göstəricilərinin onlayn platformaları

### Mərkəzi seçki komissiyası → results.cec.gov.ge

result.cec.gov.ge Gürcüstanın mərkəzi seçki komissiyasının rəsmi saytıdır ki, ən son seçki nəticələrini təsvir edir və bütün məntəqələrin protokolunu əhatə edir.

- Səhifənin başında yerləşdirilmiş siyahıdan istədiyiniz seçki dairəsini seçə bilərsiniz.
- Nəticələri əks etdirən qrafikin aşağısında yekunlaşdırıcı protokollar yerləşir ki, bu da seçki məntəqələrinə əsasən göstəriciləri əlçatan edir.
- Protokol düyməsini basmaqla konkret dairənin nəticələrini əks etdirən skaner edilmiş sənəd açılır və buna da komissiya üzvləri imza atırlar.

### Mərkəzi seçki komissiyası → voters.cec.gov.ge

Mərkəzi seçki komissiyasının məlumatlar bazası (www.voters.cec.gov.ge) həmin məqsədlə yaradılmışdır ki, seçicinin özünü seçicilər siyahısında yoxlamaq imkanı olsun. Qeyd edilən

göstəricilər bazası araşdırma məqsədləri üçün istifadə oluna bilər. Onun vasitəsilə eyni ünvanda qeydiyyatdan keçmiş şəxslərin siyahısını tapmaq olar. Bu məlumatlar sizə yardım edəcəkdir, əgər:

- Şəxsin biznes maraqlarını təyin etmək istəyirsinizsə. Qeyd edilən platformadan istifadə etməklə bilmək istəyirsiniz ki, bu və ya digər şəxsin ailə üzvləri kimdir ki, sonra onların aktivlərini də yoxlaya biləsiniz.
- Yoxlamaq istəyirsiniz ki, konkret ictimai məmurun və ya onun ailə üzvlərinin əmlakında olan bütün aktiv əmlak bəyannaməsində əks edilmişdirmi və ya yox.

Qeyd ediləni araşdırmaq üçün məlumatlar bazasına daxil olmalı və şəxsin soyadı və şəxsi nömrəsi ilə axtarış aparmalısınız. Nəticə onun və onun ailə üzvlərinin ünvanını çıxaracaqdır.

**Şəxsi nömrəni necə axtaraq?**

1. www.companyinfo.ge saytına daxil olun və şəxsi axtarın. Əgər onun əmlakında əvvəllər şirkət olmuşdursa və ya hər hansı bir şirkətin direktoru olmuşdursa, o zaman məlumatlar bazası bu şəxsin profilini onun şəxsi nömrəsi ilə göstərir.

2. www.napr.gov.ge saytına daxil olun və onun daşınmaz əmlakını axtarın. Bunun üçün daşınmaz əmlakın ətraflı axtarış hissəsi düyməsinə basmalısınız. Əgər qeyd edilən şəxsin adına nə isə qeyd edilmişdirsə, o zaman sistem onun haqqında mövcud məlumatları göstərir, o cümlədən onun şəxsi nömrəsini də.

Nadir hallarda olur ki, bizi maraqlandıran şəxs nə şirkətlə əlaqəlidir və nə də ki torpağa sahibdir. Belə bir hallarda təkcə onu etmək olar ki, Google axtarış sisteminə onun adını və soyadını daxil edəsiniz ki, bəlkə bu şəxsin adı, soyadı və şəxsi nömrəsindən ibarət sənədi tapa biləsiniz.

Şəxsin şəxsi nömrəsini bildikdən sonra seçicilər siyahısına daxil olun (www.voters.cec.gov.ge) və axtarış sətrinə onun soyadı və şəxsi nömrəsini yazın. Nəticələr onun ünvanını və eyni ünvanda qeydiyyata alınmış digər şəxsləri göstərəcəkdir. İctimai məmur halında, əgər onun ailə üzvləri və onların aktivləri əmlak bəyannaməsində qeyd edilməmişdirsə, o zaman bu ictimai şəxsin qərəzli olaraq bu məlumatı gizlətdiyi haqqında sual verməyə tam hüququnuz var.

Qeyd: bütün kənd sakinləri bir ünvanda qeydiyyatdadırlar. Bəzi hallarda, müxtəlif ailələr şəhərdə də eyni ünvanda qeydiyyatda ola bilərlər (məs. b.a. “italyan həyətlərində”)

**Campstart → Mashasada.me**

www.mashasada.me “Campstart” tərəfindən yaradılmış onlayn bazadır və 2012-ci ildən seçicilərin siyahısına əsaslanır. Adın göstərilməsi nəticəsində sistem bu adla əlaqədar statistikanı tam ölkə miqyası ilə göstərir, məsələn, bu adı daşıyan insanların sayını, onların doğum tarixlərini və hansı regionda qeydiyyatda olduqlarını.

Bu, bir adı daşıyan iki şəxsiyyətin faktiki olaraq eyni şəxs olduğuna şübhəniz olduğu halda lazımi axtarış vasitəsidir. Məsələn, eyni adı olan iki şəxsi tapdığınız halda onlardan birinin doğum tarixini bilirsinizsə, o zaman mashasada.me eyni adla neçə nəfərin həmin ildə doğulduğunu tapmaqda sizə kömək edəcəkdir. Nəzərə alın ki, sayt 2012-ci ildə seçicilərin siyahısına daxil olan adları əhatə edir (yəni 2012-ci il üçün yaşı 18-dən aşağı olmayanların).

## Hüquqi məlumatlar bazası

**Gürcüstanın qanunvericilik qurumu → matsne.gov.ge**

İctimai hüquqlu hüquqi şəxs “Gürcüstanın qanunvericilik qurumunun” www.matsne.gov.ge internet səhifəsində qanunların və başqa normativ aktların axtarışı mümkündür.

> Qeyd: bəzi sənədlərin son variantına baxış pulludur, amma sənədlərin əksəriyyəti bütün istifadəçilər üçün əlçatılandır.

Axtarış ana səhifəsində yerləşdirilən axtarış sisteminin vasitəsilə həyata keçirilir




Axtarış növbəti sətirlərin istənilən kombinasiyalarının istifadəsi ilə həyata keçirilir (onların təsviri internet səhifənin təlimatlarında verilir və bunlar da dəyişilmədən təklif olunurlar):

**Axtarış sözü/ifadəsi:** bu sətirdə axtardığımız sənədin sözü və ya sözün hissəsi (məsələn, administ) və ya ifadə (inzibati hüquq poz) yazılmalıdır. Eləcə də ifadənin iki natamam sözlə axtarılması da mümkündür, bu zaman "+" işarəsindən istifadə edilməlidir (məsələn, inzib+hüquq), belə bir halda proqram hər iki sözdən ibarət sənədləri axtarıb tapacaqdır.

**Sənədlərin filtri:** bu, seçimli sətirdir ki, bunun vasitəsilə də sənədlərdə axtarışın aparılması seçiminin imkanı verilir. Axtarış aparıldıqda ilk növbədə proqram bizim tərəfimizdən seçilmiş sözü/ifadəni yalnız əsas (kodlaşdırılmış) sənədlərdə axtarır və əgər biz eləcə də ayrıca dəyişiklik sənədini və ya müxtəlif məlumat sənədini axtarırıqsa, o zaman bütün sənədlərdə axtarışı seçməliyik.

**Sənədin növü:** seçilən sətir, burada biz hansı növdə sənədi axtardığımızı seçə bilərik (məs., qanun, fərman və s.).

**Sənədin qəbuledicisi:** sətirdə tərəfinizdən seçilmiş qəbuledicinin adını və ya onun hər hansı bir hissəsini yaza bilərsiniz. Proqramın özü sizə mövcud qəbulediciləri təklif edəcəkdir. Nə qədər çox hərf yığsaq, bir o qədər də seçicilərin seçimi azalacaqdır. Əgər biz sənədin növünü seçmişiksə, o zaman sənədin qəbuledicisi kimi yalnız müvafiq növdə sənədi qəbul etmək hüququ olan qəbuledici görünəcəkdir (məsələn, sərəncamverən növünü seçdikdə qəbuledici sətrində yalnız Gürcüstan prezidenti görünəcəkdir).

**Axtarış kriteriləri (söz/ifadə axtarılmalıdır):** göstərilən sətir proqrama axtarışın növbəti kriterilərini göstərmək imkanını verir:

*Yalnız başlıqda* – bu kriterinin seçimində proqram başlığında tərəfimizdən göstərilən sözdən/ifadədən istifadə olunan sənədi axtarıb tapır;
*Sənədin mətnində* – bu kriterini seçdikdə proqram onun mətnində, o cümlədən başlıqda da tərəfimizdən seçilən söz/ifadə istifadə edilən sənədi axtarır.
*Geniş* – geniş axtarış sətri axtarışın çevik və güclü mexanizmini təklif edir. Bu sətirdə xüsusi qaydalarla tərtib edilmiş sətri yazmaq lazımdır. Əgər bu sətirdə bir neçə sözü yazsaq, o zaman hətta bir axtarış sözündən ibarət olan bütün sənədlər axtarılıb tapılacaqdır. Əgər ifadəni əhatə edən mətni axtarmaq istəyiriksə, o zaman sətirdə bu ifadəni yazmalıyıq və dırnaq işarəsi qoymalıyıq, məsələn, "məktəbəqədər yaş dövrü". Bu sözləri dırnaq işarəsinə salmasaq, o zaman sayt bütün məktəbəqədər və ya yaş dövrü sözlərini əhatə edən sənədləri axtarıb tapar, indi isə yalnız "məktəbəqədər yaş dövrü" ifadəsini əhatə edən ifadəni tapacaqdır.

*Şablonla axtarış*– əgər axtarış sətrində kor? yazıb və axtarışa versək, o zaman sayt növbəti sözlərdən ibarət sənədləri axtarıb tapacaqdır – kort, korp..... Yəni ? işarəsi hər hansı bir hərfi nəzərdə tutur. Başqa sözlərlə desək, sual işarəsinin yerinə sayt bir istənilən simvolu nəzərdə

tutur. Bu simvolun bir neçə dəfə istifadəsi də, məsələn, kor?e? növbəti növdə sözlərə uyğun ola bilər – kortej, korvet.... Qeyd etmək lazımdır ki, bu simvollardan sözün birinci hərfinin əvəzinə istifadə etmək mümkün deyil. Eləcə də * işarəsinin xüsusi mənası var. Onun əvəzinə sayt bir neçə hərfi nəzərdə tutur. Məsələn, axtarış sətrində bəyan*-ı yığsaq, o zaman sayt növbəti tipdə sözlərdən ibarət olan sənədləri axtarıb tapacaqdır – bəyanat, istehsalat, hesabat....

* simvolunun sözün əvvəlində istifadəsi mümkün deyil.

*Üstün axtarış* – tez-tez elə bir vəziyyət yaranır ki, axtatış sənədinin bir neçə sözü yadımızdadır, eləcə də bəzi sözlərin olmasına əminik və bəzilərində isə şübhəmiz var. Məsələn, bilirik ki, məktəb və eləcə də parta sözlərinə əmin olduğumuz sənədi axtarırıq. Axtarış zamanı, təbii ki, əvvəlcə məktəb sözündən istifadə olunan sənədlərə baxmaq yaxşı olardı və istədiyimiz sənədi tapmadığımız halda, partadan ibarət sənədlərə keçid alırıq. “Üstün axtarış” metodundan istifadə etdiyimiz halda, sayt axtarılan sənədləri elə düzəcəkdir ki, əvvəlcə həqiqətən də məktəb sözündən ibarət sənədləri göstərəcək və bundan sonra – başqa sənədləri. Əlbəttə ki, bu, axtarış prosesini asanlaşdırır. Bunun üçün axtarış sətrində növbəti sətri yaza bilərik – məktəb^2parta. Bu yazıda ^2 konstruksiyası saytı göstərir ki, axtarış sənədlərində məktəbin istifadə olunması ilə əlaqədar inam səviyyəmiz 2 qat çoxdur (parta ilə müqayisədə). Parta tipində olan simvollar yazılmadığından avtomatik olaraq nəzərdə tutulur ki, inam səviyyəsi 1-ə bərabərdir. İnam səviyyəsi 1-dən çox olmalıdır. İnam səviyyəsini ifadəyə də aid edə bilərik, nəzərinizə çatdırırıq ki, ifadəni dırnaq arasına salmaq lazımdır.

*Məntiqi operatorlar* – belə bir misal gətirək: axtarılan sənəddə təmir sözündən istifadə edilirdi və eləcə də yadımızdadır ki, avtomobil və ya maşın sözü işlədilmişdi. Belə bir sənədin axtarılması üçün  məntiqi operator OR və ya məntiqi operator AND-dan istifadə etmək olar.  Axtarış sətrinə təmir AND (avtomobilORmaşın) yazmalıyıq. Digər sözlərlə desək, AND operatorundan sənəddə eyni zamanda iki axtarış sözünə təsadüf edildiyində istifadə etmək olar. OR operatorundan isə sənədə sözlərdən birinin daxil olduğu halda istifadə edilir. Məntiqi konstruksiyalar yaradıldığında mötərizələrdən istifadəyə icazə verilir və eləcə də bu, riyazi düsturlarda istifadə edildiyi kimi qəbul edilir. Məntiqi operator + sözün əvvəlində yazılır və sayta işarə edir ki, axtarış sözlərinin hökman olduğu sənədləri axtarsın. Məsələn, +aksiz cərimə elə bir sənədləri axtarıb tapır ki, hansında həqiqətən də aksiz sözü var və eləcə də cərimə sözünə təsadüf etmək olar (olmaya da bilər!). Məntiqi operator NOT  iki söz arasında və ya ifadələr arasında yazıla bilər və onu bildirir ki, axtarış sənədi birinci sözdən/ifadədən ibarət olmalı və eyni zamanda operatordan sonra gələn söz və ifadədən ibarət olmamalıdır. Məsələn, manifestasiya NOT sanksiyalı elə bir sənədləri axtarıb tapacaq ki, burada manifestasiya sözlərinə rast gəlinir və sanskiyalı sözünə rast gəlinmir.
Axtarışın, eləcə də sənədin nömrəsi və qəbulu tarixinə əsasən axtarış imkanı və geniş axtarış sətirləri var ki, burada bizə əlavə parametrlərlə sənəd axtarıb-tapmaq imkanı verilir: qeydiyyat kodu, dərc edildiyi tarix və müxtəlif statuslar.

**Gürcüstan parlamenti → parliament.ge**

Qanun layihəsinin axtarışı parlamentin internet səhifəsinin qanunvericilik hissəsində → qanunvericiliyi axtar hissəsində mümkündür. Yeni bir internet səhifəsi açılır ki, burada parlament tərəfindən qəbul edilmiş sənədlərin (qanunlar, qərarlar, ərizələr) axtarışı mümkün olacaqdır.




Axtarışı axtarış sətrində mətnin daxil edilməsi vasitəsilə və ya klaviatura işarəsinə basmaqla həyata keçirmək olar, bundan sonra da ətraflı axtarışın mümkün olduğu pəncərə açılır. Hər bir sənəd üçün qeydiyyat nömrəsi, tarix, qanun layihəsinin adı, təşəbbüskarı, tipi və statusu göstərilmişdir. Statuslar müxtəlif rənglərlə qeyd edilirlər.

Müvafiq sənədin axtarışından sonra ona iki dəfə basmaqla ətraflı məlumatı əldə etmək mümkündür.




**Sol sətirdə** qanun layihəsi(ləri)nin (qanunvericilik paketi halında) adları, təşəbbüskar və müəllifin kimliyi, təqdimat tarixləri verilmişdir.

**Orta sətirdə** qanun layihəsinin müxtəlif mərhələləri göstərilir (təşəbbüs edildiyindən qəbuluna qədər). Hansı sənədi seçməyimizə əsasən **sağ sətirdə** müvafiq məlumatlar açılır. Məsələn, təşəbbüs göstərilən variant üzrə bu variantın təhlili tarixi, komitələrin adları göstərilir ki, bunlarda da layihə təhlil edilməli, fayllara isə qanunun təşəbbüs edilmiş variantı, izahat kartı, komitə iclası protokolundan çıxarış və s. yüklənməlidir. Orta sətirdə I dinləməni seçsək, o zaman sağ sətirdə artıq bu dinləmənin müvafiq məlumatları və fayllar yerləşdiriləcəkdir.

Qeyd: “fayllar” hissəsinə diqqət verin. Bura çox maraqlı sənədlər yüklənilmişdir, o cümlədən komitənin rəyləri və səsvermə nəticələri.

## Gürcüstan hökuməti, Gürcüstan prezidenti → Government.gov.ge and president.gov.ge

Baş nazirin fərmanları www.government.gov.ge hökumət saytında, baş nazir → fərmanlar hissəsində yerləşir. Bu hissənin axtarış sistemi yoxdur və bu da məlumatın axtarışını çətinləşdirir. www.president.gov.ge-də prezident tərəfindən verilən hüquqi aktlar da yerləşdirilmişdir – “mətbuat mərkəzi” hissəsində. Axtarış sistemi bu internet səhifəsində də yoxdur.

## Gürcüstanın Kommunikasiyaların Milli Komissiyasının məlumatları

### Telekommunikasiya şirkətləri haqqında məlumat → www.gncc.ge

Gürcüstan Kommunikasiyalarının Milli Komissiyasının rəsmi internet səhifəsində - www.gncc.ge, yayım → kateqoriyasında televiziyaların və radioaların müvafiqlik bəyannamələri yerləşdirilib və burada həmin şirkətlərin sahibləri və direktorları haqqında məlumat əldə etmək olar. Siyahıdan müvafiq qurumu seçməlisiniz və ya qurumu aşağıda yerləşdirilmiş axtarış sətrində göstərməlisiniz. Axtarış düyməsinə basın. PDF faylı formatında müvafiqlik bəyannaməsi verilmişdir.

### Qurum reyestri → www.gncc.ge

Kommunikasiyaların Milli Komissiyasının rəsmi internet səhifəsində qurumların reyestri əlçatandır (hissə baş səhifənin sonunda yerləşir). Reyestrdə telekommunikasiya sektorunda fəaliyyət göstərən şirkətlərin əlaqə məlumatları verilir.

### Analitik platforma → www.analytics.gncc.ge

Kommunikasiyaların Milli Komissiyasının analitik platforması www.analytics.gncc.ge telekommunikasiya sektoru haqqında maraqlı məlumatları əhatə edir. Tam məlumatları görmək üçün istifadəçi saytda qeydiyyatdan keçməlidir.

Analitik portalda telekommunikasiya sektorunun müxtəlif seqmentləri haqqında məlumat yerləşdirilib: səyyar bazar, yayım, internet və s.

Hər bir hissədə sizin üçün istənilən qrafikləri toplaya bilərsiniz ki, bunlar da bazarda mövcud vəziyyəti əks etdirirlər. Sol zolaqdan texnologiyaların, gəlirin və ya parametrin əsasında məlumatların çıxarılmasını seçə bilərsiniz. Qrafikin yuxarısında əlavə filtrlər yerləşir (tarix, ayrı və ya ümumi məlumatlar və s.), məlumatların eksportu da mümkündür.

## Kommersiya banklarının benefisiar əmlakı → www.nbg.gov.ge

Hər bir bank Gürcüstan Milli Bankına hər kvartalda bir dəfə hesabat təqdim etməlidir ki, buna da əsas maliyyə göstəriciləri və onların idarəetməsi, şurası, birbaşa sahibkarı və benefisiar sahibkarları, yəni bankın həqiqi sahibkarları haqqında məlumat verilməlidir. Kommersiya bankı sahibkarlarının axtarışı üçün www.nbg.gov.ge saytına daxil olun, sonra → maliyyə sabitliyi düyməsinə basın və sonra → kommersiya banklarının maliyyə göstəricilərinə. Nəticədə səhifə görünəcəkdir ki, onda da Excell fayllarını (1-ci, 2-ci və 3-cü kvartallarının hesabatı üçün – hər

biri 3 aylıq dövrü əhatə edir) və PDF fayllarını (4-cü kvartalın hesabatı ki, auditin tam il ərzində hesabatından ibarətdir) əhatə edən linklər yerləşir, 2006-cı ildən etibarən hər kvartal üçün. Bəzi hallarda saytda müəyyən bankların hesabatları yerləşdirilməmişdir. Buna səbəb, adətən, bu bankların həmin dövrdə fəaliyyət göstərməməsidir.

Axtarışı asanlaşdıracaq bir neçə işarəni sizə təklif edirik:

- Excel fayllarında əmlak haqqında məlumat, bir qayda olaraq, faylın son səhifəsində verilir.
- Bəzən Excel faylını yüklədikdən sonra şrift görünmür və faylın oxunulması mümkün olmur. Bu problemin həlli üçün növbəti şriftləri yükləyin: Geo-Arial və ya Geo-times;
- Excel səhifələri həm gürcü, eləcə də ingilis dillərində əlçatandır.

## Məhkəmə qərarları

### Konstitusiya məhkəməsi → www.constcourt.ge

Konstitusiya məhkəməsinin qərarları Konstitusiya məhkəməsinin internet səhifəsində verilir (www.constcourt.ge), "məhkəmə aktları" → "qərarlar" hissəsində. Elə burada hökmlər və protokol qeydləri yerləşir. Nəzərə alın ki, qərar məhkəmə tərəfindən çıxarılan son qərardır, hökm isə məhkəmə tərəfindən çıxarılan istənilən hökmdür ki, ədalət işlərinin müxtəlif mərhələlərində qəbul edilə bilər.

Qərarların/hökmlərin filtrasiyası bir neçə parametrlə mümkündür: tarix, qeydiyyat nömrəsi, adı, şikayətçinin adı, cavabdehin adı, mübahisə predmeti. İstənilən kriteriləri daxil etdikdən sonra "Axtarış" düyməsinə basın və sistem sizə işin və ya işlərin siyahısını göstərəcəkdir. Hər bir işin düyməsini basmaqla onun haqqında ümumi məlumatı alacaqsınız. Tam variantın yüklənilməsi də mümkündür.

### Ali məhkəmə → www.supremecourt.ge

Gürcüstanın ali məhkəməsinin internet səhifəsində (www.supremecourt.ge) məhkəmə qərarlarının axtarış sistemi mümkündür. Ana səhifədə "Qərarların axtarış sistemi" hissəsinə basmaq lazımdır və sonra isə "qərarı axtar" yazısına.

Sistemdə təlimat dərsliyi verilir ki, onu da sizə dəyişdirilmədən təklif edirik:
Gürcüstan Ali Məhkəməsinin qərarlar axtarış proqramı axtarışla açılır ki, onda da cinayət, mülki və inzibati işlərin seçim düymələri və axtarış parametrləri verilir: işin nömrəsi, vaxt müddəti,

şikayət növü, işin təhlili nəticəsi, qərar mətnində axtarılası üç sətir. Mülki və inzibati qərarların axtarışı eləcə də mübahisə kateqoriyası və növünə əsasən mümkündür. Axtarış parametrlərindən istənilən kombinasiyanı seçmək mümkündür. Qərarların tam mətnində axtarış üç ifadə ilə mümkündür ki, onlar üçün də üç sətirdən istifadə edilir. Axtarış ifadələri sətirlərdə ayrı-ayrı yazılmalıdır və bu halda mətnlərində də həmin üç ifadəyə eyni zamanda təsadüf edilən qərarlar axtarılacaqdır.
Axtarış nəticələrinin yaxşılaşdırılması üçün hər bir sətirdə bir neçə ifadəni yazmaq olar. Bu halda axtarış ifadələrini „@“ simvolu ilə ayırmaq lazımdır. Axtarış nəticələrinə həmin qərarlar düşür, hansının mətnlərində doldurulmuş sətrin ən azı bir belə ifadəsi axtarıla bilər.
Məsələn, iki sətri doldursaq və hər birində 3-3 ifadə yazsaq (və „@“ simvolu ilə ayırsaq), axtarış nəticələrinə həmin qərarlar düşür, hansılar birinci sətrin ən azı bir ifadəsini və ikinci sətrin ən azı bir ifadəsini əhatə edir. Axtarış parametrlərinin daxil edildiyindən sonra axtarış düyməsini basırıq və bundan sonra ekranda məlumatlar bazasına daxil olmuş qərarların reyestri görünəcəkdir ki, bu da seçilən axtarış parametrlərini qane edir. Reyestrə baxış “növbəti səhifə” və “əvvəlki səhifə” düymələri ilə mümkündür. “Axtarışın davamı” düyməsi axtarış parametrlərinin növbəti konkretləşdirilməsi üçün istifadə edilir.
Konkret qərara ətraflı şəkildə baxış keçirilməsi üçün “geniş” düyməsini seçmək lazımdır. Bundan sonra qərarın mətni açılacaqdır. “İrəli” və “sonra” düymələri ilə axtarılmış qərarların mətnlərini nəzərdən keçirə bilərik, “geri” düyməsi isə axtarılmış qərarların reyestrinə bizi qaytarır ki, burada axtarış parametrlərinin dəqiqləşdirilməsinin (“axtarışın davamı” düyməsi) və ya axtarışa qayıdış (“yeni axtarış” düyməsi) imkanımız var.

## Tbilisi şəhər məhkəməsinin işləri → www.tcc.gov.ge

Tbilisi şəhər məhkəməsinin internet səhifəsində təhlil prosesində olan işlər haqqında ümumi məlumat yerləşdirilmişdir. Onlara şəhər məhkəməsinin internet səhifəsinin (www.tcc.gov.ge) ana səhifəsindən “cari işlər” sətrinə düyməni basmaqla keçid almaq olar. Cinayət işi, mülki və inzibati işlər kateqoriyasını seçə bilərsiniz. Siyahıda işin təhlili zamanı, hakimin adı, tərəflər, zalın nömrəsi verilir.
Siyahının əvvəlində axtarış zamanı naviqasiya üçün filtrlər verilmişdir.
İşləri tarixə əsasən filtrasiya edə bilərsiniz. Məsələn, başlanğıc tarixi olaraq hazırkı günü yaza bilərsiniz və sistemdə ən son bir neçə gün ərzində planlaşdırılmış iclaslar göstəriləcəkdir. Eləcə də konkret hakimin hansı işlərə baxdığını öyrənə bilərsiniz və ya tərəflərə əsasən axtarış həyata keçirə bilərsiniz.

## Ümumi məhkəmələr üzrə məlumatlar → *www.geocourts.ge*

Gürcüstanın ümumi məhkəmələrinin müəyyən sənədlərinin www.geocourts.ge hökumət saytı vasitəsilə mümkündür. Sayt həm məhkəmə qərarlarının ictimai yayım vasitəsi kimi tərəfin

yerinin naməlum olduğunda və ya digər kommunikasiya vasitəsələri ilə ismarıcın göndərilməsi mümkün olmadığı hallar üçün işlənib hazırlanmışdır. Sənədlərin filtrasiyası internet səhifəsində yerləşdirilmiş müxtəllif parametrlərin əsasında mümkündür, məhkəmə ismarıcı tipinə düyməni basmaqla isə yükləyə biləcəyiniz sənədlər görünəcəkdir.

## Büdcə məlumatları

### Dövlət büdcəsi → www.mof.gov.ge

Maliyyələr Nazirliyinin saytı (www.mof.gov.ge) "büdcə" hissəsindən ibarətdir və onda dövlət büdcəsinin məlumatları və əyani vasitələr cəmləşmişlər. Saytda qrafik açılır ki, bu da dövlət büdcəsinin 2002-ci ildən bəri dinamikasını göstərir. Kiçik hərf „ფ" hər ildən sonra "fakt" sözünü bildirir, „გ" hərfi "plan" sözünə uyğundur, „პ" hərfi isə - "layihə" sözünə.

Büdcə haqqında daha çox məlumat almaq üçün istədiyiniz parametri seçə bilərsiniz. Bir neçə əsas sənədə nəzər salmaq lazımdır:

- Büdcənin analitik göstəriciləri: bu hissə tam daxili məhsulun artımı dinamikasını, büdcə qıtlığını, iflası, konsolidasiya edilmiş büdcəni (dövlət büdcəsindən fərqli olaraq, konsolidasiyalı büdcə yerli özünüidarəetmənin büdcələrini də əhatə edir) və dövlət büdcəsini əks etdirən cədvəllərdən ibarətdir. Cədvəllər son on il ərzində ölkənin iqtisadi inkişafını göstərir və bu da Gürcüstan iqtisadiyyatı barədə asanlıqla qavranılan məlumatların ümumi təsəvvürünün yaradılması üçün çox vacibdir.
- BDD (əsas məlumatlar və istiqamətlər): bu hissə sənədləri əhatə edir (PDF formatında) ki, bunlar da büdcə xərcləri məsələsində hökumət planlarını təsvir edir. Ən son sənəd 2015-2019-cu illərə aiddir. Bu, növbəti bir neçə il üçün nəzərdə tutulmuş büdcə xərcinin çox ümumi təsviridir və proqnoz isə real büdcəyə, ola bilsin ki, heç uyğun olmasın...
- Dövlət büdcəsi: bu hissə iki yarımşöbəni əhatə edir – dövlət büdcəsini və yerinə yetirilmə hesabatlarını.
- Dövlət büdcəsinin yarımşöbəsinə ilə tanışlıq imkanını dövlət büdcəsi haqqında qanun verir.
- Büdcə haqqında qanunda ən mühüm məlumat 1,2 və 6-cı fəsillərdə verilmişdir.
- Yerinə yetirmə hesablarının büdcələr yarımşöbəsi yerinə yetirmənin kvartal hesabatlarından ibarətdir. İlin üzərində düyməni basın, sonra kvartala və müvafiq hesabatla tanış olun.
- Büdcə təqvimi: bu hissədə təqvimi görə bilərsiniz, kursorun konkret tarixə müraciəti nəticəsində isə mətn çıxacaqdır ki, bu da büdcə ilə əlaqədar həmin gündə baş verən hadisələri təsvir edir: büdcə layihəsinin parlamentə təqdim edilməsi, iclas və s. Burada tam il ərzində büdcənin inkişafına nəzər sala bilərsiniz.
- Vətəndaşın bələdçisi: bura 2016-cı ilin büdcəsi haqqında PDF sənədləri yüklənmişdir ki,

bunda da büdcənin məzmunu sadə şəkildə verilir. Büdcə məsələləri ilə az tanışlığı olan şəxslərin bu sənədlərlə tanış olması məqsədəuyğundur.

### Dövlət borcu → www.mof.gov.ge

Dövlət borcu haqqında mövcud statistika da Maliyyə Nazirliyinin saytında (www.mof.gov.ge) yerləşdirilmişdir. Ana səhifənin "Dövlət borcu" hissəsinə daxil olun.

### Yerli özünüidarəetmə büdcələri

Yerli munisipalitet büdcələri sakrebuloların qərarlarını təqdim edir və onları www.matsne.gov.ge saytında görmək olar. Amma bu saytda büdcələrin ən son variantları (konsolidasiya edilmiş variant) ödənişlidirlər.

## Vergilər xidmətinin məlumatları

### Vergi güzəştləri ilə faydalananların reyestri → www.rs.ge

Vergilər xidmətinin (www.rs.ge) internet səhifəsində beynəlxalq müqavilələrin əsasında, müəyyən vergilərdən azad edilən layihələr və təşkilatlar sadalanırlar. Bu, əsasən, xarici hökumət təşkilatları tərəfindən maliyyələşdirilən və dövlət orqanları və qeyri-kommersiya təşkilatlarının həyata keçirdiyi layihələri əhatə edir.

Siyahıya daxil olmaq üçün Vergilər xidmətinin (www.rs.ge) internet səhifəsinə daxil olun, "Servislər" kateqoriyasından "vergi güzəştləri ilə faydalananların reyestri" hissəsini tapın. Siyahıda verilir: vergi güzəştlərinin əsaslandığı beynəlxalq müqavilənin adı, layihənin adı, layihəni həyata keçirən təşkilatın adı və eyniləşdirmə kodu, layihə müddətləri, vergidən azad olunan vergi növləri (ƏDV, idxal vergisi, aksiz vergisi), layihənin statusu və qeydlər.
Konkret təşkilatın və ya layihənin axtarışı üçün hər sütunun yuxarı hissəsində (başlıqların aşağısında) mövcud boş sətirlərdən istifadə edin. Məsələn, təşkilatlar hissəsində "Beynəlxalq Şəffaflıq - Gürcüstan" yazın və sistem sizə "Beynəlxalq Şəffaflıq - Gürcüstanın" iştirak etdiyi bütün layihələri göstərəcəkdir.

### Oyun biznesi lisenziyalarının reyestri, xeyriyyə təşkilatlarının reyestri → www.rs.ge

- Vergilər xidmətinin internet səhifəsinin ana səhifəsindən (www.rs.ge) "faydalı məlumatlar" hissəsinə keçid alın, "Vergilər", sonra isə "Oyun biznesinə icazələrin reyestri" yarımhissəsini seçin. Verilən parametrlərin əsasında şirkəti axtarıb tapa bilərsiniz.
- Vergilər xidmətinin internet səhifəsinin ana səhifəsindən (www.rs.ge) "faydalı

məlumatlar” hissəsinə keçid alın, “Vergilər”, sonra isə “Xeyriyyə təşkilatlarının reyestri” yarımhissəsini seçin. Verilən parametrlərin əsasında şirkəti axtarıb tapa bilərsiniz.

**Məhsul kodlarının reyestri → www.rs.ge**

Vergilər xidmətinin internet səhifəsi (www.rs.ge) eləcə də qeydiyyatdan keçmiş intellektual əmlakın siyahısını əhatə edir. “Faydalı məlumatlar” hissəsinə keçin, sonra “Gömrük” hissəsində “intellektual əmlak”-ı seçin və “reyestr” düyməsini basın. Verilən parametrlərin əsasında məlumatı axtarıb tapa bilərsiniz.

**İdxal-ixrac məlumatları →** www.rs.ge

Vergilər xidmətinin əsas səhifəsindən statistika məlumatlarını seçin. Vergi və idxal-ixrac haqqında statistika məlumatları ilə tanış olacağınız başqa səhifələrə keçəcəksiniz.

## İnternet domen kimə aiddir?

**.GE domen → www.registration.ge**

Gürcüstanın Milli Ge domeninin qeydiyyat servisini ekslküzuv olaraq “Kavkasus onlayn” həyata keçirir. Ge domen internet səhifələrinin sahibləri haqqında məlumatı www.registration.ge saytında əldə etmək mümkündür.
Domenin adını internet səhifənin yuxarı hissəsində yerləşdirilmiş axtarış qrafasına daxil edin ki, burada da “Azad domeni yoxlayın” yazılır. Məsələn, əgər “şəffaflıq” sözünü yazıb “yoxlama” düyməsini basdığınız halda, internet səhifə “Beynəlxalq Şəffaflıq - Gürcüstanın” əlaqə məlumatını sizə çatdıracaq, yəni transparency.ge domeninin qeydiyyatdan keçmiş subyektinin adını. Bu yolla internet səhifələrə malik şirkətlər haqqında məlumatları axtara bilərsiniz. Məlumat köhnə də ola bilər.

**Beynəlxalq domenlər → www.domaintools.com**

www.domaintools.com elə bir vasitədir ki, onun köməkliyi ilə domendə qeydiyyatdan keçmiş şəxsləri və hostinq göstəricilərini axtarmaq olar. Baş səhifədə axtarış sətrinə domenin adını daxil edin və sayt onda qeydiyyatdan keçmiş şəxslər haqqında, eləcə də internet səhifənin müəyyən statistik və ümumi məlumatını sizə çatdıracaqdır.

# Ümumi statistik məlumatlar

**Gürcüstan statistikası → www.geostat.ge**

Gürcüstanın statistikası hökumət qurumudur və ona statistik məlumatın toplanılması və analizi tapşırılır. Qurumun saytı (www.geostat.ge) müxtəlif statistik məlumatlardan ibarətdir, onlar da ana səhifədən asanlıqla əlçatandırlar. Hər hansı bir kateqoriya düyməsini basın və müvafiq siyahını görə biləcəksiniz.

**CRRC-in sorğu məlumatları → www.caucasusbarometer.org**

"Qafqazın Tədqiqat Resursları Mərkəzi" (CRRC) müxtəlif təşkilatlar üçün. Bunun nəticələri də www.caucasusbarometer.org saytında dərc edilmişdir. İstədiyiniz tədqiqatı seçə bilərsiniz və ya müxtəlif ölkənin və ya müxtəlif illərin nəticələrini bir-biri ilə müqayisə edə bilərsiniz. Saytdan istifadəyə başlamazdan öncə saytdakı qısa video-çərxə baxın.

## Gəmilər və təyyarələr
## Gürcüstanın hava limanları və təyyarələri → www.gcaa.ge

Gürcüstanda aviasiya sahəsində məsuliyyətli dövlət qurumu İqtisadiyyat Nazirliyi yanında mövcud İctimai Hüquqli Hüquqi Şəxs "Gürcüstan Mülki Aviasiya Agentliyi"-dir (www.gcaa.ge):. Agentliyin internet səhifəsindən mümkündür:

- Gürcüstanın hava limanları və vertodromları haqqında məlumatı əldə etmək olar. Saytın ana səhifəsini izləyin və "Hava limanları və vertodromlar" sətrində düyməni basın. Solda yerləşən "Gürcüstanın Mülki hava limanları və vertodromlar" yazısını basın. Mülki hava limanlarının və vertodromların siyahısı görünəcəkdir, onların eyniləşdirmə məlumatları və operator şirkətlərinin adlarının göstərilməsi ilə. Əlavə məlumat üçün hər bir hava limanına basın:
- Hava gəmilərinin reyestri haqqında məlumatın alınması: ana səhifədə "Reyestr"-i seçin, təyyarələrin eyniləşdirmə məlumatları ilə və şirkətlərin adları ilə operator siyahısı görünəcəkdir.
- Yüklərin və sərnişinlərin haqqında məlumatın əldə edilməsi: "Statistika, cədvəl" hissəsini mausu yönəldin və məlumatların gözdən keçirilməsi üçün müvafiq yarımhissəsini seçin.

**Gəmilər haqqında məlumatların nəzərdən keçirilməsi → Marinetraffic.com & Vesseltracker.com**

Həm Marinetraffic.com, eləcə də Vesseltracker.com imkan verir ki, gürcü bayrağı altında üzən gəmilərin siyahısına baxaq (hər halda, onların məlumat bazasında siyahıya alınan gəmilər). Hər iki saytda metal qırıntılarına çevrilən/silinən gəmilər haqqında məlumatları görə bilərsiniz, onların şəkilləri və təsvirlərini:

- Marinetraffic.com-da Gürcüstanın 140-dan çox gəmisi siyahıya alınmışdır. Baxın http://www.marinetraffic.com/en/ais/index/ships/all; (ingiliscə)

- Vesseltracker.com-da 100-dən çox gəmilərin sayı qeydə alınmışdır, o cümlədən istifadə olunmayan gəmilərin də. Baxın: http://www.vesseltracker.com/en/VesselArchive/Georgia/All.html (ingiliscə, almanca, rusca)

**Batumi və Poti portlarında gəmilərə göz gəzdirin →**

Aşağıda kommersiya saytları imkan verir ki, hal-hazırda portda olan gəmiləri biləsiniz, hansı gəmilər gözlənilir və ya portlara yaxınlaşırlar və hansı gəmilər indi Gürcüstan limanlarını tərk edirlər:

**Batumi →**
https://www.marinetraffic.com/en/ais/details/ports/787/Georgia_port:BATUMI
http://www.vesseltracker.com/en/Port/Batumi/Dashboard.html

**Poti →**
https://www.marinetraffic.com/en/ais/details/ports/786/Georgia_port:POTI
http://www.vesseltracker.com/en/Port/poti/Dashboard.html

https://www.marinetraffic.com/en/ imkan verir ki, xəritəyə operativ nəzər salasınız. Burada onların son yerdəyişmələrinə, gəmilərin məlumatlarına, fotoşəkillərə və s. baxa bilərsiniz.

**Gürcüstan portlarının internet səhifələri**

Hər bir portun saytında müəyyən növdə ətraflı məlumata və statistikaya Gürcüstanın əsas portları haqqında (onları özəl şirkətlər istismar edirlər):

→ Batumi: http://www.batumiport.com/eng/index.php?page=show&sec=52 (ingilis., gürcü, rusc.)
→ Poti: http://www.apmterminals.com/europe/poti/ (ingil.)
→ Kulevi Neft terminalı: http://www.kulevioilterminal.com/ (ingil., rus.)

## Xarici şirkətləri necə izləyək?

Həmin ölkələrin sayı, hansıların hüdudlarında fəaliyyət göstərən biznes şirkətlərin əmlakı haqqında məlumat açıqdır, amma çox azdır. Buna baxmayaraq istifadəçilərə xarici şirkətlər haqqında müəyyən məlumat əldə etmək imkanını verən platformalar vardır

**Axtarış paneli → www.investigativedashboard.com**

Axtarış paneli (www.investigativedashboard.com) müxtəlif ölkələrinin biznes reyestrlərinin linklərini birləşdirir. Bu sayta daxil olun, „Search in documents and databases" seçin və ya "Visit Recommended Global Databases". Hər iki halda geniş siyahı əldə ediləcək, burada da müxtəlif ölkələrin açıq mənbələri sadalanmışdır. Təbii ki, müxtəlif ölkələrdə şəffaflığın fərqli standartları təsir göstərir, müvafiq olaraq burada sadalanmış mənbələr bir-birindən fərqlənir.

Bu internet səhifənin daha bir funksiyası vardır - Ask an expert. Siz ərizəni araşdırdığınız məsələni göstərməklə doldura bilərsiniz və təşkilatın tədqiqatçısı sizə müvafiq məlumatı verəcəkdir. Təşkilat sizə pulsuz xidmət göstərəcək, çox vaxt tələb olunsa da.

**Ofşorlardan məlumat → http://offshoreleaks.icij.org**

Bu məlumatlar bazası müxtəlif ofşor yurisdiksiyalarda qeydiyyatdan keçmiş şirkətlərin və onların sahibləri haqqında məlumatdan ibarətdir. Bu bazada son aylarda dərc olunan Panama sənədləri də birləşirlər. Ana səhifənin axtarış sətrinə şəxsin və ya şirkətin adını daxil edin və əgər şəxs və ya subyekt məlumatlar bazasında qeydiyyatdan keçirsə, o zaman sistem siyahı verəcəkdir ki, burada da həmin şəxs qeydə alınır. Şəxsin və ya subyektin düyməsini basın və bu subyektlərin başqa şirkətlərlə və özəl şəxslərlə əlaqələrini əks etdirən sxemi alacaqsınız.

Məlumatı eləcə də konkret ölkənin, məsələn, Gürcüstanın əsasında axtarıb tapa bilərsiniz.

**Qeyd:** məlumatlar bazası bütün ofşor şirkətlər və onların sahibləri haqqında məlumatdan ibarət deyil. Əgər şəxs və ya şirkət bazada qeydə alınmırsa, bu onu bildirir ki, bu şirkət fəaliyyət göstərmir və ya verilən şəxs ofşor subyektlərdə şirkətlərə malik deyil.

**ABŞ qiymətli kağızlar və birja məlumatları → www.secinfo.com**

www.secinfo.com ABŞ qiymətli kağızlar və birja komissiyasının məlumatlar bazasıdır və onda rəsmi olaraq qeydiyyatdan keçmiş şirkətlər tərəfindən təqdim edilən hesabatlar cəmlənir. Qeyd edilən saytın interfeysi istifadə üçün çox rahat görünmür, hərçənd internet səhifəsi çox faydalı məlumatları əhatə edir…

Məsələn, "Beynəlxalq Şəffaflıq - Gürcüstan" məlumatların bu bazasının vasitəsilə xəbər tutmuşdur ki, Rusiyanın "Vımpelkom" telekommunikasiya şirkəti öz payını Gürcüstanın "Mobitel" ("Bilayn") şirkətində bu yaxınlarda 51%-dən 80%-ə qədər artırmışdır…

Axtarış sətrinə şirkətin adını yazın və sistem bu şirkət tərəfindən təqdim edilən hesabatları göstərir. Baza, bir qayda olaraq, geniş mətn və məlumatlardan ibarətdir. Bunun üçün də arzu edilən məlumatın toplanılması çox vaxt tələb edir.

| |
|---|
| **Qeyd:** Hesablara baxmaq üçün saytda qeydiyyatdan keçməlisiniz. Qeydiyyatdan keçdikdən sonra isə saytla pulsuz istifadə edə bilərsiniz. |

## Məlumatlarımızı necə vizuallaşdıraq?

*Tövsiyə edilən onlayn resurslar*

| | |
|---|---|
| Open Refine (keçmiş: Google Refine) http://openrefine.org/ | Asanlıqla idarə edilən həcmli Ecel fayllarını verəcəkdir |
| Datawrapper (www.datawrapper.de) | Bloqlarınızda və onlayn məqalələrinizdə interaktiv sxemlər yaradın |
| Timeline JS (https://timeline.knightlab.com/) | Hadisələrin vaxtda inkişafını göstərmək üçün |
| Tableau public (http://www.tableausoftware.com/) | Həcmli məlumatları idarə edə və vizuallaşdıra biləcəksiniz |
| Picktochart (https://piktochart.com/) | İnfoqrafiklər |
| Vis.occrp.org (http://vis.occrp.org/) | Subyektlər və şirkətlər arasında mövcud əlaqələri vizuallaşdıra biləcəksiniz. |

## Əlavə

**Qeyd edilən siyahıda çalışdıq ki, Gürcüstanla bağlı açıq məlumatları onlayn mənbələri və faydalı məlumatları bir araya gətirək.**

“Beynəlxalq Şəffaflıq - Gürcüstan” tərəfindən toplanmış açıq məlumatların bütün saytlarının siyahısı əlavə olunur (həm gürcü, eləcə də xarici dildə): https://docs.google.com/a/transparency.ge/spreadsheet/ccc?key=0AqsbzT5Sdy6PdFVUYk96bVM2enRzNGc2c3Q4a2R5eGc&usp=drive_web#gid=0